Heydər Əliyev - 101

UOT 94(479.24); UOT 94; UOT 930

BALAMİRZƏ MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin doktorantı
balamirzamammadli@gmail.com

HEYDƏR ƏLİYEVİN İKİNCİ PREZİDENTLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA

DOI: https://doi.org/10.36719/2708-065X/105/63-73

XX əsr ilə XXI əsrin ayrıcında gənc Azərbaycan Respublikasının dünyanın yeganə fövqəldövləti və qlobal miqyasda nəhəng güc mərkəzi ABŞ ilə münasibətləri Ulu Öndər Heydər Əliyevin ikinci prezidentliyi dövrünə təsadüf edir. Bu mühüm periodda nəinki ABŞ ilə münasibətlərdə, bütövlükdə müstəqil Azərbaycan Respublikasının xarici siyasətində nəzərəçarpacaq müsbət dəyişikliklər baş vermişdir. Əgər Azərbaycanın öz müstəqilliyini əldə etdiyi ilk illərdə Azərbaycan-ABŞ münasibətləri daha çox anlaşılmaz və mürəkkəb xarakter kəsb edirdisə [25, s.64], müdrik və uzaqgörən dövlət xadimi Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ikitərəfli əlaqələr müsbət tendensiya üzrə əhəmiyyətli dərəcədə inkişaf etdirilməyə başlanılmış və iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlmişdir. Xüsusilə, bütün dünyanı lərzəyə salan 2001-ci ilin 11 sentyabr hadisəsindən sonra ABŞ-ın rəhbərliyi ilə başlanan antiterror kampaniyasına Azərbaycanın dərhal qoşularaq ABŞ-ı dəstəkləməsi qarşılıqlı əlaqələrə böyük təsir göstərdi. Vətən tarixşünaslığında Azərbaycan-ABŞ münasibətlərinin bəhs olunan periodu (1998-2003-cü illər) çoxsaylı tədqiqatçıların əsərlərində geniş şəkildə öz əksini tapmışdır. Məqalədə sözügedən problemin Vətən tarixşünaslığı üzrə tədqiqat əsərlərinin müqayisəli təhlili və ümumiləşdirmələr əsasında Azərbaycan-ABŞ münasibətlərinin 5 ili tədqiq edilir.

Açar sözlər: Azərbaycan Respublikası, ABŞ, Heydər Əliyev, Corc Buş (kiçik), xarici siyasət, beynəlxalq münasibətlər, antiterror kampaniyası, Vətən tarixşünaslığı.

Giriş. Görkəmli dövlət xadimi Heydər Əliyevin ikinci prezidentliyi dövrü XX əsrlə XXI əsrin ayrıcına və XXI yüzilliyin ilk illərinə təsadüf edir. 1998-ci ilin 11 oktyabrında keçirilən prezident seçkilərində Heydər Əliyev xalqın 76,11% səsini toplayaraq ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi [43, s.196]. Bunan bir həftə sonra, oktyabrın 18-də keçirilən andiçmə mərasimindəki nitqində Heydər Əliyev özünün birinci prezidentliyi dövründə həyata keçirilmiş uğurlu xarici siyasətin qarşıdakı 5 ildə də davam etdiriləcəyi ilə bağlı bildirdi: "Azərbaycan ötən beş il müddətində ardıcıl, düşünülmüş xarici siyasət aparmışdır. Bizim xarici siyasətimiz uğurlu olmuş və öz müsbət nəticələrini vermişdir. Ötən beş il müddətində dünyanın bir çox ölkələri ilə, o cümlədən inkişaf etmiş ölkələri ilə, aparıcı ölkələri ilə Azərbaycan arasında sıx əməkdaşlıq əlaqələri yaranmışdır. Ölkələrarası çoxsaylı müqavilələr, sazişlər imzalanıbdır. Bütün bunların nəticəsində Azərbaycan dünya birliyində özünə layiq yer tutubdur. Bizim xarici siyasətimizdə tutduğumuz yol bundan sonra da davam edəcəkdir" [14, s.67-68].

Azərbaycan və ABŞ arasında enerji sahəsində əməkdaşlıq Vətən tarixşünaslığında. Heydər Əliyevin ikinci dəfə Azərbaycan Respublikası Prezidenti seçilməsindən qısa müddət sonra – 1998-ci il oktyabrın 29-da neft və qaz ehtiyatlarının dünya bazarlarına təhlükəsiz nəqli üçün Bakı-Ceyhan əsas ixrac neft boru kəmərinin tikilməsi haqqında "Ankara bəyannaməsi" imzalandı. Bu, M.Qasımlının vurğuladığı kimi, həm də Azərbaycan-ABŞ əməkdaşlığının konkret nəticəsi idi və bununla iki ölkə arasında əməkdaşlıq yeni keyfiyyət halı alırdı [21, s.209]. Təsadüfi deyildir ki, həmin vaxtlar ABŞ Prezidentinin Riçard Morninqstarın başçılığı ilə Xəzər regionu üzrə xüsusi müşaviri vəzifəsi təsis edildi. G.Quliyeva bu hadisəni ABŞ-ın regiona olan müstəsna diqqətinin mühüm təzahürü kimi xarakterizə edir [23, s.96]. 1998-ci ilin dekabrın 16-da Prezident Heydər Əliyev xüsusi müşavir

R.Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən, Morninqstar Bakı-Ceyhan əsas ixrac neft kəmərinin tikintisini dönüş nöqtəsi yaradan amil kimi qiymətləndirdi [14, s.411-412]. Həmçinin R.Morninqstar 1999-cu ilin fevralında Bakıya səfər edərək Prezident Heydər Əliyev ilə görüşmüş və Bakı-Ceyhan əsas ixrac neft kəməri layihəsi də daxil olmaqla bir sıra zəruri məsələləri müzakirə etmişdir.

1999-cu il noyabrın 18-19-da İstanbulda ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısı keçirildi [9, s.163]. İstanbul sammitində Prezident Heydər Əliyevin Prezident Bill Klinton ilə görüşü oldu və burada Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllində ABŞ-ın öz səylərini artıracağı, habelə Bakı-Ceyhan və Transxəzər layihələrində ABŞ-ın başlıca məqsədləri B.Klinton tərəfindən qeyd olundu. İstanbul sammitində ABŞ Dövlət Departamenti xüsusi bəyanatla çıxış edərək, ABŞ-ın Xəzər regionu üzrə strategiyasının əsas məqsədlərini açıqladı. Bu məqsədlərə Xəzər regionunun yeni müstəqil dövlətlərinin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, onların iqtisadi rifahının təmin edilməsi; İranın heç bir müdaxiləsi olmadan Xəzərin enerji resurslarının dünya bazarına sərbəst çıxışını təmin etməklə ABŞ, Türkiyə və onların müttəfiqlərinin enerji təhlükəsizliyinin gücləndirilməsi; Xəzərin enerji resurslarının nəqlinin vahid marşrutdan asılılığının aradan qaldırılması; Amerika şirkətlərinin kommersiya fəaliyyəti üçün perspektivlərin yaradılması və s. daxil idi. İlham Əliyev "Azərbaycanın Xəzər nefti" adlı fundamental monoqrafiyasında ABŞ Dövlət Departamentinin sözügedən bəyanatını təhlil edərkən belə qənaətə gəlir ki, bu bəyanat Rusiyanın və İranın Qafqaz-Orta Asiya regionunda təsirinin tam şəkildə zərərsizləşdirilməsi və mütləq şəkildə aradan qaldırılmasından, regional enerji resursları üzərində Amerika-Türkiyə nəzarətinin təmin edilməsi, Rusiyanın cənub sərhədlərində ABŞ və Türkiyənin geosiyasi dominantlığının bərqərar edilməsinə xidmət edirdi [41, s.174]. Belə bir perspektiv isə təbii ki, həm Rusiya, həm də İran üçün arzuolunmaz idi. Bununla belə, A.Mirabdullayevin də yazdığı kimi, Qərb dövlətləri Cənubi Qafqazda öz həyati maraqlarını açıq göstərməkdən çəkinmirdilər və ABŞ-ın (eləcə də bir sıra Avropa ölkələri və Türkiyənin) fəaliyyətləri çox vaxt Rusiyanın regiondan sıxışdırılıb çıxarılmasına yönəldilirdi [27, s.244].

ABŞ-ın müasir tarixinin tədqiqi üzrə ixtisaslaşmış britaniyalı tarixçi Ceyms Boys "Klintonun böyük strategiyası" adlı monoqrafiyasında sözügedən hadisələrlə bağlı yazır: "1999-cu il noyabrın 18-də Prezident Klinton İstanbulda Bakı-Tbilisi-Ceyhan boru kəməri sazişinin və Transxəzər qaz boru kəməri Bəyannaməsinin imzalanmasında iştirak etdi. Hər iki təşəbbüs neft və qazı Xəzər regionundan mümkün qədər ekoloji cəhətdən təhlükəsiz şəkildə çıxarmaq məqsədi daşıyırdı. Xəzərdə ABŞ-ın Böyük Strategiyası iqtisadiyyata əsaslanırdı" [10, s.184-185]. Göründüyü kimi, C.Boys Xəzər regionunun ABŞ üçün əhəmiyyətini iqtisadiyyat amili ilə izah edir. Bu mövqeyə Vətən tarixşünaslığında da bir sıra tədqiqat əsərlərində rast gəlirik. Məsələn, Ç.Abbasov "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları" adlı monoqrafiyasında ABŞ-ın Xəzər regionu üzrə maraqlarının əsasən iqtisadi mənfəət üzərində qurulması qənaətinə gələrək yazır: "ABŞ-ın Energetika Nazirliyinin qiymətləndirməsinə əsasən, Xəzər dənizi regionu ən iri işlənilməmiş karbohidrogen ehtiyatlarına malikdir. Potensial ehtiyatlar – 200 milyard barrelə yaxın neft və 350 trilyon kub fut təbii qaz təşkil edə bilər. Xəzər neftində maraqlı olan ölkələr, o cümlədən ABŞ karbohidrogenlərin istehlakına tələbatın və deməli, xam neftin qiymətinin artması müşahidə edildiyi zaman xarici investisiyaların həcmini artırmaqla Xəzər neftindən yüksək mənfəət əldə etməyə ümid edirdilər" [1, s.174-175]. Ə.Həsənov bu faktı təsdiq edərək vurğulayır ki, Xəzər hövzəsi məhz özünün zəngin karbohidrogen ehtiyatlarına görə dünyanın aparıcı güclərinin diqqət mərkəzinə çevrilmişdir [18, s.9]. S.Qaraşova da eyni mövqedən çıxış edərək yazır ki, ABŞ-Azərbaycan əlaqələrinin intensiv inkişafında məhz enerji faktorunun mühüm rolu olmuşdur. Belə ki, ABŞ dünya neft və qaz ehtiyatlarının müvafiq olaraq 5% və 4%-nin Azərbaycanın payına düşməsi faktına istinad edərək Azərbaycanla əlaqələrini əsasən enerji sahəsində inkişaf etdirməyi vacib hesab etmişdir [20, s.280]. Bununla belə, C.Boys sözügedən məsələnin təkcə iqtisadi amillə bağlı olmaması, həm də mühüm siyasi əhəmiyyət kəsb etməsi faktını da xüsusi vurğulayır: "İqtisadi fayda ilə yanaşı, Klinton administrasiyası həm də belə hesab edirdi ki, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistan kimi Xəzəryanı dövlətləri bir araya gətirəcək və onların potensial bazarlara nüfuz etmələrinə, demokratiyanın inkişafı imkanları üzrə birgə səylər göstərmələrinə stimul verəcək" [10, s.185]. Diqqəti çəkən digər məqam isə odur ki, britaniyalı müəllif ABŞ-ın "Böyük Strategiyası"nın inkişaf edən xarakterini onun məhz Xəzər regionuna yönəlməsi ilə

əlaqələndirir: "Dünyanın bu hissəsində (Xəzər regionunda – B.M.) sabitlik həm Aralıq dənizindən Çinə qədər təhlükəsizliyi təmin edir, həm də ABŞ-ın iştirakı ilə Xəzərin geniş neft və qaz ehtiyatlarının sürətli inkişafına və beynəlxalq bazarlara nəqlinə imkan yaradırdı" [10, s.184]. Türkiyə tədqiqatçısı Z.Yıldırım da bu məsələdə oxşar qənaətə gəlir: "Əsas enerji mənbələrinə nəzarətdə Rusiyanın liderliyi enerji təhlükəsizliyi baxımından ABŞ-ı narahat edirdi. Fars körfəzi regionu ilə müqayisədə Xəzər regionuna istiqamətlənən siyasət Amerikanın maraqlarına daha yaxşı xidmət edirdi" [39, s.2]. P.Darabadi bu fikri davam etdirərək yazır: "2001-ci ilin yanvarında Davos iqtisadi forumunda amerikalı nümayəndələr bir daha təsdiq etdilər ki, Xəzər regionu onların həyati maraqları zonasıdır və ona Fars körfəzinə alternativ olan neft mənbəyi kimi baxılır" [45, s.176].

2000-ci ilin 12-28 fevralında Prezident Heydər Əliyevin ABŞ-a işgüzar səfəri iki ölkə arasında münasibətlərin dostluq və tərəfdaşlıq istiqamətində inkişaf etməsinə böyük töhfə verdi. Həmin səfər ilə bağlı müfəssəl məlumatlar 2000-ci ildə nəşr olunmuş "Azərbaycan-ABŞ: dostluq və tərəfdaşlıq yollarında" adlı kitabda öz əksini tapmışdır. Həmin kitabda qeyd olunur ki, Prezident Heydər Əliyevin ABŞ-a işgüzar səfəri Azərbaycan-Amerika əlaqələrinin inkişafına yeni təkan verməklə iki ölkə arasındakı münasibətlərin dönməz və daimi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bir daha əyani şəkildə təsdiq etdi [3, s.5]. M.Qasımlı sözügedən səfərin nəticəsini xarakterizə edərkən yazır ki, bu uğurlu səfər çərçivəsində iki ölkə arasında münasibətlərə dair ən mühüm məsələlər müzakirə edilmiş, müzakirə edilən məsələlərə yanaşmada tərəflər arasında fikir ümumiliyi mövcud olmuşdu. Beləliklə, sözügedən səfər və keçirilən danışıqlar iki ölkə arasında münasibətlərdə yeni bir səhifə açmışdır [21, s.220]. Prezident Heydər Əliyevin sözügedən işgüzar səfərindən sonra, 2000-ci ilin martında Y.Kalitskinin başçılığı ilə ABŞ nümayəndə heyətinin enerji sahəsində əməkdaşlığın geniş perspektivlərini inkişaf etdirmək məsədilə Azərbaycana səfəri, iyunda Azərbaycan və ABŞ müdafiə nazirlərinin görüşərək hərbi əməkdaşlıq sahəsində müzakirələr aparmaları və d. mühüm hadisələr XX əsrin sonuna kimi ikitərəfli münasibətlərin uğurla davam etdirilməsinin göstəricisi idi. Vətən tarixşünaslığında bir çox tədqiqatçıların: "Ümumiyyətlə, Azərbaycan Prezidenti 1993-cü ildən 2001-ci ilin əvvəlinə kimi dünyanın 68 ölkəsinin prezidentləri və dövlət başçıları ilə 485 görüş keçirmişdir. ABŞ-ın prezidenti və xarici işlər naziri ilə 18 dəfə tarixi görüş keçirilmişdir" – deyə, yazması bunu bir daha təsdiqləyir [2, s.184].

Corc Buşun prezident seçilməsindən sonra Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında. Respublikaçılar partiyasını təmsil edən və 2000-ci ilin noyabrında keçirilən seçkilərdə qalib gələrək ABŞ-ın 43-cü prezidenti seçilən Corc Volker Buş (kiçik Buş və ya oğul Buş – B.M.) 2001-ci ilin yanvarın 20-də öz səlahiyyətlərinin icrasına başladı [44, s.109]. C.Buş öz prezidentliyinin ilk vaxtlarından Azərbaycan ilə əlaqələrə və bütövlükdə Cənubi Qafqaz və Xəzər regionuna xüsusi diqqət yetirməyə başladı, ABŞ-Azərbaycan münasibətlərinin intensivliyi davam etdirildi. Belə ki, artıq 2001-ci ilin əvvəlində Prezident C.Buş vitse-prezident R.Çeyni başda olmaqla ABŞ-ın enerji siyasətinə dair doktrinanın hazırlanması üzrə işçi qrupu yaratmış və həmin işçi qrupu Xəzər regionuna, o cümlədən Azərbaycana xüsusi yer ayıran sənəd hazırlamışdı. Sözügedən sənəddə Bakı-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilməsi dəstəklənir, Xəzər dənizinin məhz Azərbaycan sektorundan hasil ediləcək qazın alınması tövsiyə olunurdu. Elə bu səbəbdəndir ki, Vətən tarixşünaslığında bir çox tədqiqatçılar, cümlədən Ə.Nəsibova belə qənaətə gəlirlər: "Kiçik Buş administrasiyanın elə ilk addımları göstərdi ki, ABŞ Xəzəryanı bölgənin aparıcı qüvvəsi olmaq niyyətindən vaz keçməyib" [29, s.128]. P.Darabadi Xəzər regionu üzrə xüsusi bölmənin və ayrıca işçi qrupunun yaradılmasını, regionda enerji məsələləri üzrə Prezident və dövlət katibinin xüsusi müşaviri postunun təsis edilməsini Xəzər regionunun ABŞ üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini təsdiqləyən faktlar kimi nəzərdən keçirir [45, s.177]. S.Qaraşovanın fikrincə, məhz kiçik Buşun prezident seçilməsindən sonra ABŞ-ın Cənubi Qafqaz siyasətinin keyfiyyətcə və mahiyyətcə yeni, ikinci mərhələsi (birinci mərhələ 1991-2001-ci illər idi) başlamışdır [20, s.252]. Britaniyalı müəlliflər M.Qriffits, T.O'Kallaqan və Stiven Rouç yazırlar ki, ümumilikdə yeni prezident C.Buşun doktrinası 4 təməl prinsipinə əsaslanırdı: demokratiyanın genişləndirməsi; müharibələrin qarşısının alınması; bipolyar deyil, təkqütblü dünyanın bərqərar edilməsi və ABŞ-ın bütün dünyada hegemonluğu [15, s.25]. Dünya siyasətində ABŞ-ın lider rolunun möhkəmləndirilməsinə xidmət edən bu doktrinada enerji ehtiyatlarının mühüm yer tutduğunu xüsusi olaraq vurğulayan M.Qasımlı yazır ki, ABŞ hökuməti enerji mənbələrinin istis-

marı və təhlükəsizlik məsələlərini daim əlaqələndirir, Azərbaycan ilə enerji və təhlükəsizlik sahəsində əməkdaşlıqda əhəmiyyətli yer verirdi [21, s.226].

2001-ci il martın 22-də səfir H.Paşayev ABŞ Müdafiə Nazirliyinin nümayəndəsi C.Starr ilə görüşdü və təhlükəsizlik, hərbi məsələlər ilə bağlı danışıqlar aparıldı. Görüşdə 907-ci maddənin ikitərəfli əməkdaşlığa mane olduğu bildirildi, ABŞ-ın beynəlxalq hərbi təhsil və təlim proqramına Azərbaycanın cəlb edilməsinə Pentaqon tərəfindən səylər göstərilməsi xahiş edildi. Lakin, M.Qasımlı göstərir ki, Azərbaycan ordusu zabitlərinin ABŞ-ın hərbi təhsil məktəblərinə cəlb edilməsinin 907-ci maddə çərçivəsində həyata keçirilməsi məsələsi Pentaqon hüquqşünasları tərəfindən razılaşdırılaraq ABŞ Dövlət Departamentinə təqdim edilsə də, Dövlət Departamenti Azərbaycanın sözügedən proqramda iştirak etməsinin mümkün olmadığını bildirdi [21, s.224].

2001-ci il aprelin 1-dən 14-nə kimi Prezident Heydər Əliyev ABŞ-da işgüzar səfərdə oldu [38]. Səfər zamanı, 3-7 apreldə ABŞ hökumətinin Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi təşəbbüsü əsasında ABŞ dövlət katibi K.Pauellin iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yollarının araşdırılması məqsədilə Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti Robert Köçəryan arasında Florida ştatının Ki Vest şəhərində görüş keçirildi. Lakin, Ki Vest şəhərində aparılmış danışıqlar lazımi nəticə vermədi. R.Mehdiyev bununla bağlı yazır ki, 2001-ci ilin yanvarında Parisdə Fransa Prezidenti Jak Şirakın təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan danışıqlarda irəliləyişə nail olmaq mümkün olmadığı kimi, həmin aprelində Ki Vest şəhərində dörd günlük yüksək səviyyəli danışıqlar da nəticəsiz oldu [46, s.272]. E.Əliyev də öz elmi məqaləsində 2001-ci ilin yanvarında Parisdə aparılan danışıqların aprel ayında ABŞ-ın Ki Vest şəhərində Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam etdirildiyini vurğulayır [13, s.205]. Bununla belə, Vətən tarixşünaslığında Ki Vest danışıqlarının münaqişənin həllinə müəyyən töhfə verməsi də qeyd olunur. Məsələn, F.İsmayılov "Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində" adlı monoqrafiyasında Ki Vest danışıqlarını "konfliktin həlli strategiyasında yeni səhifə" adlandırmışdır [19, s.97]. Müəllif sözügedən əsərində bu fikrini belə izah edir: "Ümumilikdə, belə bir təşəbbüs təqdirəlayiqdir, çünki danışıqlarda indiyə kimi uğur qazanılmamasının, 13 il davam edən konfliktin həll olunmamasının bir səbəbi də bu formatda görüşlərin keçirilməməsidir" [19, s.101]. Bu fikri davam etdirən M.Qasımlı yazır ki, Ki Vest danışıqlarında razılıq əldə olunmasa da, Amerikaya səfərin gedişində – aprelin 9-da Prezident Heydər Əliyev ABŞ Prezidenti Corc Buş ilə görüşərək "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin ləğvi, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli və Xəzərin enerji ehtiyatlarının istifadəsi kimi mühüm məsələlərini müzakirə etdi, C.Buş münaqişənin dinc yolla həllinin vacibliyini vurğuladı [21, s.225].

2001-ci ilin 11 sentyabr hadisəsindən sonrakı Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında. 2001-ci il sentyabrın 11-də ABŞ-da bütün dünyanı silkələyən dəhşətli hadisə baş verdi. Belə ki, "Əl-Qaidə" təşkilatı tərəfindən ABŞ-a qarşı dörd ardıcıl terror hücumu həyata keçirildi. Sözügedən təşkilatın 19 terrorçusu ABŞ-ın şimal-şərqində yerləşən Yeni İngiltərə (New England) və Orta Atlantika (Mid-Atlantic) bölgələrindən Kaliforniyaya getməyi planlaşdıran ikisi "Boinq-757" və ikisi "Boinq-767" olmaqla 4 sərnişin təyyarəsini qaçırdılar [47, s.474]. Terrorçular səhər saat 9 radələrində ilk iki təyyarəni o zamanlar dünyanın beş ən hündür binasından ikisi sayılan və Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin 110 mərtəbəli Əkiz Qüllələrinə (Twin Towers; 417 metr hündürlüklü Şimal qülləsi və 415 metr hündürlüklü Cənub qülləsi – B.M.) çırpdılar [49, s.67]. Hər iki qüllə təqribən 1 saat 40 dəqiqə ərzində çökdü ki, bu da Dünya Ticarət Mərkəzi kompleksinin digər 5 strukturunun yerlə-yeksan olmasına, habelə yaxınlıqdakı binaların zədələnməsinə və ya dağılmasına səbəb oldu. Növbəti uçuşlar ölkənin paytaxtı Vaşinqton və yaxınlığındakı hədəflərə yönədildi. Üçüncü təyyarə Virciniya ştatının Arlinqton qraflığında ABŞ Müdafiə Nazirliyinin qərargahı olan Pentaqona çırpıldı və onu qismən zədələdi. Dördüncü təyyarə isə, əvvəlki hücumlardan xəbərdar olan sərnişinlərin təyyarəyə nəzarəti ələ keçirmək üçün üsyan qaldırması nəticəsində Pensilvaniyadakı kəndlərdən birində qəzaya uğradı. İstintaqçılar belə müəyyənləşdirdilər ki, həmin təyyarənin hədəfi ya ABŞ Kapitolisi ya da Ağ Ev olub [51]. Ümumilikdə 3100 nəfər insanın həyatını itirməsinə səbəb olan bu hücumlar terrora qarşı çoxillik qlobal müharibənin başlamasına gətirib çıxardı [47, s.474].

Xarici tarixşünaslıqda olduğu kimi, Vətən tarixşünaslığında da 11 sentyabr hadisəsi geniş müzakirələr doğurmuşdur. M.Qasımlı təkcə ABŞ-ın deyil, bütün dünyanın siyasi həyatına, beynəlxalq

münasibətlərə ciddi təsir edən bu hadisəni belə təhlil edərkən belə qənaətə gəlir ki, məhz 2001-ci ilin 11 sentyabrından sonra dünyada sülh və təhlükəsizliyə, terrora qarşı mübarizəyə, dünya quruluşuna baxış dəyişdi, tarazlaşdırılmış beynəlxalq münasibətlər sisteminin yerini dinamik beynəlxalq münasibətlər tutdu [21, s.224]. S.Qaraşovanın fikrincə, 2001-ci il 11 sentyabrdan sonra ABŞ-ın xarici siyasətində nəinki fundamental dəyişikliklər baş verdiyini, hətta tam yeni bir strategiyanın formalaşdığını söyləmək mümkündür [20, s.252]. S.Mustafayeva, Ş.Qurbanova və Z.Cavadova birgə ərsəyə gətirdikləri "ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər)" adlı kitabda sözügedən hadisənin nəticəsi ilə bağlı yazırlar: "Ölkəyə 105 milyard dollar məbləğində ziyan vurmuş bu hadisənin əsas yekunu ondan ibarət oldu ki, əhali Amerikanın vurula biləcəyini və qorxunun nə olduğunu bildi. Başqa sözlə, ABŞ-ın beynəlxalq terrorçuluq kimi təhlükəli və qorxulu düşməni meydana çıxdı. Bu düşmən həm də gözəgörünməz idi, onun konkret yeri məlum deyildi, haradan və nə vaxt ondan növbəti terror aktı gözləməyi müəyyən etmək çətin idi" [28, s.92]. Həmin fikri M.Baxışov da öz əsərlərində təsdiq edir: "2001-ci ilin sentyabrın 11-də törədilmiş terror aktları Kiçik C.Buş hökumətinin xarici siyasətinə böyük təsir göstərdi. ...Hadisənin əsas yekunu ondan ibarət oldu ki, əhali Amerikanın vurula biləcəyini və qorxunun nə olduğunu bildi" [5, s.259; 6, s.152]. B.Bayramova "Azərbaycan ilə ABŞ arasında hərbi, təhlükəsizlik sahəsində əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə (2001-2008-ci illər)" adlı elmi məqaləsində yazır ki, 11 sentyabr hadisələri ABŞ kimi hegemon dövlətin belə terrorizmin müasir arsenalı qarşısında təhlükəsiz olmadığını göstərdi və bu dəhşətli bəla potensial olaraq bütün dövlətlərə və xalqlara qarşı çevrilə bilər [8, s.223]. E.Qələndərova "Terror anlayışı və onun müasir növləri" adlı elmi məqaləsində vurğulayır ki, məhz 11 sentyabr hadisəsindən sonra hətta dünyanın ən güclü dövlətinin belə özünü terror təhlükəsindən qoruya bilməməsi hamıya aydın oldu [22, s.104]. Vətən tarixşünaslığındakı kimi bənzər qənaətə gələn Rusiya tədqiqatçıları A.Protopopov, V.Kozmenko və N.Yelmanova daha obrazlı şəkildə 11 sentyabr hadisələrinin nəticəsini belə təsvir edirlər: "11 sentyabr 2001-ci il terror aktı amerikan təkəbbürlülüyünə dəhşətli zərbə vurdu, Amerikanın xarici siyasətinin prioritetlərini dəyişdi və ABŞ-ı özünün strateji xəttinə yenidən baxmağa vadar etdi" [36, s.367].

11 sentyabr hadisəsi ABŞ-ın bütün xarici siyasət kursu kimi Azərbaycan ilə münasibətlərinə də ciddi təsir göstərdi. Bunu E.Nuriyev "11 sentyabr sonrası regional geosiyasət: Azərbaycan və Cənubi Qafqazda yeni təhlükəsizlik mühiti" adlı elmi məqaləsində belə ifadə edir: "Birləşmiş Ştatlarda 11 sentyabr terror aktları Cənubi Qafqazda geosiyasi şəraiti kəskin şəkildə dəyişdi. Faktiki olaraq, ABŞ-ın son bir ayda terrora qarşı apardığı müharibə Azərbaycanın xarici siyasətinin yenilənməsində mühüm rol oynadı" [34, s.15]. Terrorun baş verdiyi gün ABŞ Prezidenti C.Buş dünya ölkələrinə müraciət edərək "ya bizimləsiniz, ya da bizim əleyhimizəsiniz" – deyə, onları terrora qarşı mübarizə məsələsində qəti mövqe nümayiş etdirməyə çağırdı. Vətən tarixşünaslığında birmənalı şəkildə göstərilir ki, Azərbaycan ABŞ-ın bu çağırışına ilk reaksiya verən və antiterror koalisiyasına qoşulan dünya ölkələrindən biridir. E.Nəsirov vurğulayır ki, 11 sentyabr hadisələrindən terrorizmlə mübarizə keyfiyyətcə yeni mərhələyə qalxmış və bu prosesə Azərbaycan Respublikası da fəal qoşulmuşdur [31; 32, s.332]. Müəllif "ABŞ və beynəlxalq terrorizm problemi" adlı monoqrafiyasında bununla bağlı yazır: "Təsadüfi deyildir ki, terror aktlarından bir gün sonra – sentyabrın 12-də AR Prezidenti Heydər Əliyev məlum hadisələrlə bağlı bəyanat verərək Azərbaycan ictimaiyyətinin ABŞ-da baş vermiş dəhşətli terror hadisələrindən dərindən sarsıldığını və kədərləndiyini qeyd etmiş və qlobal bəla ilə birgə mübarizənin aparılmasının zəruriliyini qeyd etmişdi. ...Elə həmin gün Prezident Heydər Əliyev "ABŞ-da 2001-ci il sentyabrın 11-də baş vermiş terror aktlarının günahsız qurbanlarının xatirəsinin yad edilməsi haqqında" sərəncam imzalamışdı. ABŞ-dakı teraktlardan dərhal sonra Prezident Heydər Əliyev ölkənin Təhlükəsizlik Şurasının iclasını çağırmış və bir sıra ciddi tədbirlər görülməsi üçün tapşırıqlar vermişdi" [30, s.291]. M.Qasımlı da bu fikri təsdiq edir: "ABŞ-ın çağırışına ilk cavab verən ölkələrdən biri Azərbaycan Respublikası oldu. Azərbaycan Prezidenti ABŞ-da baş verən hadisələrlə bağlı xüsusi bəyanat verərək baş vermiş terror aktlarını və terrorçuluğun bütün təzahürlərini pislədiyini, terroru dəhşətli bəla kimi qiymətləndirdiyini, terroçuluq əleyhinə mübarizədə ölkəsinin əməkdaşlığa hazır olduğunu və dünya birliyinin səylərini dəstəklədiyini bildirdi" [21, s.227]. Azərbaycanın Birləşmiş Ştatların çağırışına dərhal reaksiya verərək antiterror kampaniyasına qoşulması faktı Vətən tarixşünaslığı ilə yanaşı xarici tarixşünaslıqda da təsdiq olunur. Məsələn, amerikalı tədqiqatçı Cim Nikol Cənubi

Qafqaz respublikalarında təhlükəsizlik məsələləri və bunun ABŞ-ın maraqlarına təsirləri ilə bağlı tədqiqat əsərində yazır: "Birləşmiş Ştatlara qarşı terror aktlarının ertəsi günü Azərbaycanın o zamankı prezidenti Heydər Əliyev bəyan etdi ki, Azərbaycan ABŞ-ın strateji tərəfdaşıdır və terrorizmə qarşı əməliyyatlarda ABŞ-a qoşulacaq. Azərbaycan ABŞ-a öz hava məkanında uçuş hüququ və kəşfiyyat dəstəyi verdi, habelə özünün bazalarından istifadə etməyi təklif etdi" [33, s.33].

R.Mehdiyev "XXI əsrdə milli dövlətçilik" adlı tədqiqat əsərində qeyd edir ki, Prezident Heydər Əliyevin 11 sentyabr hadisəsinə dərhal reaksiya verərək beynəlxalq antiterror koalisiyası çərçivəsində ABŞ-a kömək etməyə hazır olduğunu bəyan etməsi Qərbdə yüksək qiymətləndirildi ki, bu da Azərbaycanın beynəlxalq aləmdə imicinin yüksəlməsinə gətirib çıxardı [24, s.130]. B.Bayramova "ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər)" adlı monoqrafiyasında Buşun çağırışına Azərbaycanın "Biz sizinləyik" – deyə, qətiyyətli cavab verərək ABŞ-a dəstək verən ilk dövlətlərdən biri kimi antiterror kampaniyasına fəal qoşulması faktının "Vaşinqton Tayms" qəzetində dərc olunmuş bir məqalədə də əks olunduğunu göstərir [7, s.51]. N.Məmmədov "Xarici siyasətin Azərbaycan modeli" adlı tədqiqat əsərində 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulmasını və terrorizmə qarşı mübarizədə fəal iştirakını Prezident Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri kimi xarakterizə edir [26, s.132]. ABŞ-Azərbaycan əlaqələrinin 11 sentyabr terror aktlarından sonra daha da möhkəmlənməsi, Azərbaycanın ABŞ-ı qətiyyətlə dəstəkləyərək terrorizmi qəti şəkildə pisləməsini A.Yunusov Londonda nəşr edilmiş elmi məqaləsində belə izah edir: "Bu, geniş miqyasda həm də azərbaycanlıların 1986-1994-cü illərdə Qarabağda baş verənləri erməni terrorizmi kimi qəbul etməsi, xüsusilə də 1960-80-ci illərdə bütün dünyada türkləri hədəfə alan ASALA erməni terror təşkilatı ilə bağlı idi. 1994-cü ildən Qarabağda atəşkəs sazişi qüvvədə olsa da, ermənilər artıq Azərbaycan ərazilərinə hücumlar həyata keçirməsələr də, onların Bakı metrosunda yüzlərlə insan ölümünə səbəb olan iki terror aktı, avtobuslarda partlayışlar və s. törətmələrini əhali unutmamışdı" [40, s.16]. Ümumilikdə, ABŞ-ın antiterror mübarizəsində Azərbaycanın qəti və birmənalı mövqeyi iki ölkə arasında münasibətlərə əhəmiyyətli dərəcədə müsbət təsir göstərdi. M.Qasımlı bunu Azərbaycan-ABŞ münasibətlərinin əməkdaşlıq və tərəfdaşlıqdan – strateji münasibətlərə doğru yeni bir mərhələsini başladan hadisə kimi xarakterizə edir [21, s.228]. B.Bayramova məhz bu hadisədən sonra ABŞ-ın xarici siyasətində Azərbaycana qarşı mühüm dönüşün başlaması qənaətinə gəlmişdir. Müəllif yazır ki, əgər 11 sentyabradək Avrasiyada ABŞ-ın əsas məqsədi SSRİ-nin bərpasına mane olmaq idisə, indi Qafqaz, xüsusilə Azərbaycan və Gürcüstan ABŞ-ın terrorçuluğa qarşı mübarizə strategiyasının başlıca məntəqəsi oldu. Bu da öz növbəsində ABŞ-Azərbaycan münasibətlərinin indiyədək görünməmiş səviyyəsini doğurmuş oldu: bölgədə formalaşmış yeni geosiyasi konfiqurasiyada Azərbaycan başlıca oyunçulardan birinə və ABŞ-ın strateji tərəfdaşına çevrildi [7, s.22].

11 sentyabr teraktından sonra ABŞ-ın Azərbaycanın yerləşdiyi regionun geosiyasi və hərbi-strateji baxımdan nə qədər yüksək əhəmiyyətə malik olduğunu dərk etməsini K.Hacıyev Rusiya Elmlər Akademiyasının "Dünya iqtisadiyyatı və beynəlxalq münasibətlər" adlı elmi jurnalında çap olunmuş məqaləsində belə izah edir: "Qafqaz-Xəzər regionunun hərbi-strateji əhəmiyyəti həm də onun Fars körfəzinə və ABŞ-ın "həyati əhəmiyyətli maraqları" zonasının əsas dövlətləri olan İrana və İraqa yaxın olması ilə bağlı idi. Bu baxımdan, NATO-nun Avropadakı silahlı qüvvələrinin baş komandanı general C.Cons tərəfindən "Qafqaz hava dəhlizi Əfqanıstandakı silahlı koalisiya qüvvələri ilə Avropadakı bazalarımız arasında son dərəcə vacib həyat xəttinə çevrilib" – deyə, bildirilməsi diqqəti cəlb edir" [42, s.39]. Belə bir vəziyyətdə ABŞ administrasiyası Azərbaycana qarşı qadağaları nəzərdə tutan 907-ci maddənin aradan qaldırılması üçün Prezidentə səlahiyyət verilməsi barədə Konqresə müraciət etdi. Vətən tarixşünaslığında bir çox tədqiqatçılar göstərir ki, 11 sentyabr hadisələrindən sonra 907-ci maddənin hələ də qüvvədə qalması Amerikada nəinki ABŞ-Azərbaycan münasibətlərinə, eləcə də ABŞ-ın öz milli maraqlarına ziyan vuran məsələ kimi qiymətləndirilməyə başlanıldı. Y.Babanlı bununla bağlı yazır: "2001-ci il oktyabr ayında ABŞ Prezidenti C.Buş və dövlət katibi K.Pauell Konqresə müraciət edərək "907-ci düzəliş"in aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladı" [4, s.155]. M.Qasımlı da təsdiq edir ki, ABŞ-da rəsmi şəxslər 907-ci maddənin ləğvinin vacibliyini ABŞ-ın maraqları nöqteyi-nəzərdən qiymətləndirməyə başladılar [21, s.228].

Azərbaycanın antiterror kampaniyasında iştirakı, terrorizm əleyhinə mübarizədə ikitərəfli hərbi əməkdaşlığın perspektivləri, habelə 907-ci maddənin ləğvinə dair məsələləri müzakirə etmək məqsədilə 2001-ci ilin 15 dekabrında ABŞ müdafiə naziri Donald Ramsfeld ölkəmizə səfər etdi ki, bununla da o, ABŞ-ın Azərbaycana rəsmi səfər edən ilk müdafiə naziri kimi tarixə düşdü [21, s.230]. X.Heydərova ABŞ müdafiə nazirinin ölkəmizə səfər etməsinin məqsədini təhlil edərkən belə qənaətə gəlir ki, burada başlıca məqsəd NATO qüvvələrinin hərtərəfli təchizatı üçün Azərbaycan ərazisindən tranzit ölkə kimi istifadə olunmasına razılıq əldə etmək idi [16, s.85]. Bu zaman Prezident Heydər Əliyev və müdafiə naziri Səfər Əbiyev ilə D.Ramsfeld arasında danışıqlar aparıldı. Azərbaycan tərəfi ilə əldə olunmuş razılığa əsasən, dövlətimiz ABŞ və onun müttəfiqlərinin ölkənin hava məkanından istifadəsinə şərait yaradacağını bəyan etdi [16, s.85]. Ramsfeldin səfərinin nəticəsini B.Bayramova belə xarakterizə edir: "Ümumiyyətlə, ABŞ müdafiə nazirinin Azərbaycana rəsmi səfəri dövlətlər arasında hərbi əməkdaşlığın daha da genişlənməsinə, ölkəmizin ABŞ-ın müxtəlif beynəlxalq əhəmiyyətli hərbi proqramlarında iştirakı və onlardan faydalanmasına geniş imkanlar yaratdı" [7, s.55]. M.Qasımlı isə bu mühüm görüşün nəticəsi ilə bağlı yazır: "Müzakirələr nəticəsini verdi. 2002-ci il yanvarın 25-də ABŞ Prezidenti C.Buş 907-ci maddənin bir il müddətinə dayandırılmasına dair sənədi imzaladı və ABŞ tərəfi Azərbaycan ilə hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirdi" [21, s.231]. 907-ci maddənin dayandırılması Vətən tarixşünaslığında birmənalı şəkildə böyük dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan diplomatiyasının uğuru kimi xarakterizə edilir. R.Dadaşova yazır ki, ABŞ administrasiyası yalnız Ümummilli lider Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində 2002-ci ildə Konqresə Azərbaycana yardımın 46% artırılması, Ermənistana isə yardımın 22% azaldılması barədə müraciət etdi [12, s.138]. 2002-ci il yanvarın 29-da Prezident Heydər Əliyevin Azərbaycanda səfərdə olan ABŞ dövlət katibinin müavini Elizabet Cons ilə görüşündə siyasi, hərbi və təhlükəsizlik sahəsində ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə edildi. B.Bayramova vurğulayır ki, bu görüş zamanı xanım E.Cons ABŞ təyyarələrinin Azərbaycan hava məkanından Əfqanıstana uçub keçməsinə icazə verdiyinə görə Prezident Heydər Əliyevə öz minnətdarlığını bildirdi [7, s.56]. Beləliklə, H.Paşayevin "ABŞ-la əməkdaşlığın vacib tərkib hissəsi" adlı məqaləsində yazdığı kimi, əgər 11 sentyabra qədər Cənubi Qafqazla, o cümlədən Azərbaycan ilə bağlı ABŞ-ın geostrateji maraq və məqsədləri demokratiya və bazar iqtisadiyyatının inkişafı, regionda müstəqil dünyəvi dövlətçiliyin möhkəmlənməsi, Xəzərin enerji ehtiyatlarının istifadəsi ilə bağlı idisə, 11 sentyabr hadisəsindən sonra ABŞ-Azərbaycan münasibətlərində mühüm keyfiyyət dəyişikliyi baş verdi: "Amerika hökuməti terrorizmə qarşı mübarizədə Azərbaycanın rolunu və əhəmiyyətini dərk edərək "907-ci düzəliş"ə həmişə bəyan etdiyi etirazını əməli tədbirə çevirə bildi və nəhayət, Amerikanın milli maraqları erməni lobbisinin maraqlarına üstün gəldi" [35, s.97].

Siyasi, iqtisadi, hərbi, təhlükəsizlik və digər sahələrdə Azərbaycan-ABŞ əməkdaşlığının genişləndirilməsi Vətən tarixşünaslığında. ABŞ və Azərbaycan arasında siyasi, hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığın genişlənməsi iqtisadi əlaqələrə də öz müsbət təsirini göstərdi. Belə ki, 2002-ci ilin birinci yarısında iki ölkə arasında 90,2 milyon dollar həcmində ticarət dövriyyəsinin olması faktı da bunu təsdiq edir. Bununla yanaşı, M.Qasımlının yazdığı kimi, ikitərəfli münasibətlərinin möhkəmlənməsinə təsir edən əsas amillərdən biri 2002-ci il sentyabrın 17-də ABŞ-ın energetika naziri S.Abrahamın da iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməlatma mərasimi oldu [21, s.235]. Ə.Həsənov ABŞ-ın bu yeni energetika nazirinin sözügedən boru kəmərinin açılış mərasimində iştirak etməsini və Prezident Heydər Əliyevlə keçirdiyi görüşü iki ölkə arasında ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlıq, transmilli layihələrin reallaşmasındakı birgə fəaliyyətin müxtəlif aspektlərini müzakirə etmək baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayır [17, s.262]. 2002-ci ildə ABŞ-Azərbaycan münasibətlərinin xüsusilə təhlükəsizlik sferasında yüksəlişini H.Paşayevin elmi məqaləsində qeyd olunmuş statistik faktlar da təsdiq edir: sözügedən ildə ABŞ hökuməti AR Müdafiə Nazirliyinə təhlükəsizlik sahəsində 4,4 milyon dollar məbləğində vəsait ayırmışdır ki, bu da 2001-ci illə müqayisədə 4 dəfə çox idi. Həmçinin, 2002-ci ildə ölkəmiz təhlükəsizlik və müdafiə sahəsində 11 proqramda iştirak etmişdi [35, s.98]. Bundan əlavə, Azərbaycan sərhədlərinin, xüsusilə dəniz sərhədlərinin mühafizəsinin gücləndirilməsi və terrorizm əleyhinə mübarizə məqsədilə ABŞ tərəfindən 3 milyon dollar vəsait ayrıldı [21, s.238].

2003-cü ilin fevralın 23-də ABŞ Prezidenti Corc Buşun dəvəti ilə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin inkişafında növbəti addım oldu. Rəsmi səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-ın ticarət naziri D.Evans və energetika naziri S.Abraham ilə görüşlərində Azərbaycan-ABŞ münasibətlərinin mühüm iqtisadi aspektləri, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarının işlənilməsində ABŞ-ın rolu, enerji sahəsində iki ölkə arasında əməkdaşlığı məsələləri müzakirə edildi. M.Qasımlı məlumat verir ki, həmin vaxt artıq ABŞ Xəzərin təkcə neft üzrə Azərbaycan sektoruna 2,2 milyard dollar sərmayə qoymuşdu [21, s.239]. Rəsmi səfər çərçivəsində, fevralın 25-də ABŞ-ın paytaxtı Vaşinqtonda "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfrans keçirildi. Prezident Heydər Əliyevin bu konfransda iştirakına müəlliflər kollektivinin 2013-cü ildə ərsəyə gətirdiyi "Böyük liderin 90 anı" adlı kitabda xüsusi yer verilmişdir. Bu kitabda göstərilir ki, Heydər Əliyev öz çıxışında Xəzər dənizinin Azərbaycan sektorunun 4 milyard ton neft və 5 trilyon kub metr qaz ehtiyatlarına, habelə digər çox perspektivli yataqlara malik olduğunu vurğulayaraq bunun həm Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi və xalqımızın rifahının yaxşılaşdırılması, həm də Azərbaycanla əməkdaşlıq edən Qərb ölkələrinə çox böyük mənfəət, fayda gətirməsi baxımından böyük əhəmiyyətə malik olmasını dünyaya çatdırmışdır [11, s.230]. Sözügedən konfransın ertəsi günü Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ Prezidenti C.Buş ilə, habelə ABŞ dövlət katibinin birinci müavini R.Armitac, vitse-prezident R.Çeyni ilə, fevralın 27-də isə Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) direktoru C.Tenet ilə görüşü baş tutdu. M.Qasımlı keçirilmiş görüşləri və bütövlükdə Prezident Heydər Əliyevin ABŞ-a rəsmi səfərini XXI əsrin əvvəllərində Azərbaycan-ABŞ münasibətlərinə təsirini xarakterizə edərkən yazır: "Azərbaycan Prezidentinin ABŞ-a səfəri və keçirilən görüşlər iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi və dərinləşdirilməsi baxımından əhəmiyyətli idi. ABŞ hökuməti region siyasətində Azərbaycana xüsusi yer verirdi. ABŞ hökuməti Azərbaycanı regionda strateji tərəfdaş kimi görürdü" [21, s.241].

2003-cü il martın 20-dən mayın 1-nə kimi ABŞ və onun müttəfiqlərindən ibarət koalisiya beynəlxalq terrorizm, xüsusilə "Əl-Qaidə" ilə əlaqəsi olduğu bildirilən Səddam Hüseyn rejimini devirmək üçün İraqda hərbi əməliyyatlar keçirdi. Ç.Sultanovun yazdığı kimi, həmin vaxtlar ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi (CIA), Britaniyanın "MI-6", İsrailin "Mossad", Almaniyanın Federal Kəşfiyyat Xidməti (Bundesnachrichtendienst), habelə Fransa kəşfiyyatı dəfələrlə Səddam Hüseynin kütləvi qırğın silahlarına malik olduğunu açıqlamışdı [48, s.387]. Çox güman ki, bu, hərbi əməliyyatın həyata keçirilməsi üçün əsas səbəblərdən biri idi. Əməliyyatın başlanmasının ertəsi günü Azərbaycan Respublikası XİN İraqda koalisiyanın istənilən fəaliyyətinin dəstəkləndiyini bildirən bəyanat verdi. Vətən tarixşünaslığında Azərbaycanın bu addımı iki ölkə arasında münasibətlərə müsbət təsir göstərən hal kimi qiymətləndirilir. M.Qasımlı yazır ki, bununla ABŞ Azərbaycanın əlavə dəstəyini qazandı, Azərbaycan da siyasi dəstək əldə etdi [21, s.241]. ABŞ-ın rəhbərlik etdiyi və Azərbaycanın da daxil olduğu antiiraq koalisiyasının haqlı olduğunu sonrakı hadisələr təsdiq etdi. Belə ki, aktiv hərbi əməliyyatların başa çatmasından sonra İraq ərazisində kütləvi qırğın silahları tapılmasa da, 1991-ci ilə qədər istehsal olunmuş kimyəvi silah mərmiləri aşkarlandı ki, onları Səddam Hüseyn 1991-ci ildən sonra ləğv etməli idi. Buna görə də, belə qənaətə gəlindi ki, Səddam Hüseyn ABŞ-a qarşı terror hücumu planlaşdırıb [52]. Məhz bu səbəbdən də, sonradan – 2003-cü ilin dekabrın 13-də keçirilən "Qırmızı şəfəq" (*Operation Red Dawn*) adlı xüsusi əməliyyat ilə amerikalı hərbçilər Səddam Hüseyni Əd-Daur şəhərində (Səddam Hüseynin doğma şəhəri olan Tikrit yaxınlığında – B.M.) ələ keçirdilər [50]. Bundan 3 il sonra İraq Ali Tribunalında Səddam Hüseynə 1968-2003-cü illər arasında soyqırım, insanlığa qarşı cinayət, müharibə cinayətləri və d. ciddi ittihamlarla edam cəzası verildi [37, s.258-263].

2003-cü il avqustun 6-da Prezident Heydər Əliyev səhhətində yaranmış problemlə əlaqədar müayinə və müalicəsini davam etdirmək üçün Ankaradan ABŞ-ın Ohayo ştatının Klivlend şəhərinə getdi. Klivlend klinikasında müalicə alan Ümummilli lider 2003-cü il dekabrın 12-də ürək çatışmazlığı səbəbindən vəfat etdi.

Nəticə. Beləliklə, XX əsrin sonu–XXI əsrin başlanğıcında Azərbaycan Respublikasının dünyanın yeganə fövqəldövləti ABŞ ilə münasibətləri böyük dövlət xadimi Heydər Əliyevin ikinci prezidentliyi dövründə mühüm bir mərhələyə qədəm qoymuşdur ki, bu mərhələdə iki ölkə arasındakı mü-

nasibətlər strateji tərəfdaşlığın inkişaf etdirilməsinə istiqamətlənən tendensiya ilə tarixə düşmüşdür. Sözügedən dönəmdə (1998-2003-cü illər) Azərbaycan-ABŞ münasibətlərinin mahiyyət, xarakter və xüsusiyyətləri Vətən tarixşünaslığındakı çoxsaylı araşdırmalarda – monoqrafiya, dərslik, elmi məqalələrdə və s. geniş şəkildə öz əksini tapmış, bir çox elmi əsərlərin tədqiqat obyekti olmuşdur. Həmin tarixşünaslıq materiallarının müqayisəli təhlili problemi daha dərindən və hərtərəfli tədqiq etməyə imkan yaradır.

ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, "Elm", 2005, 252 s.
2. Abdullayev Ə. Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2004, 214 s.
3. Azərbaycan-ABŞ: dostluq və tərəfdaşlıq yollarında. Bakı, "Nurol", 2000, 182 s.
4. Babanlı Y. Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011). Bakı, "Elm və təhsil", 2016, 328 s.
5. Baxışov M. Amerika Birləşmiş Ştatlarının xarici siyasəti (1776-2016). Bakı, "Sabah", 2017, 286 s.
6. Baxışov M. Amerika Birləşmiş Ştatlarının yeni və müasir tarixi. Bakı, "3 saylı Bakı Mətbəəsi", 2018, 195 s.
7. Bayramova B. ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər). Bakı, "Sabah", 2019, 244 s.
8. Bayramova B. Azərbaycan ilə ABŞ arasında hərbi, təhlükəsizlik sahəsində əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə (2001-2008-ci illər). Tarix və onun problemləri, №2, 2011, s.222-227.
9. Bəxtiyarov H. Azərbaycan-ATƏT münasibətləri (XX əsrin 90-cı illəri). Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), №2, 2015, s.161-165.
10. Boys J. Clinton's Grand Strategy. US foreign policy in a post-Cold War world. London, "Bloomsbury", 2015, 321 p.
11. Böyük liderin 90 anı. Bakı, "Şərq-Qərb", 2013, 247 s.
12. Dadaşova R. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı. Bakı, "ADMİU-nun mətbəəsi", 2021, 344 s.
13. Əliyev E. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in vasitəçilik missiyası və sülh təklifləri. Tarix və onun problemləri, №3, 2014, s.198-205.
14. Əliyev H. Müstəqilliyimiz əbədidir. XVIII kitab. Bakı, "Azərnəşr", 2006, 552 s.
15. Griffiths M., O'Callaghan T., Steven C.Roach. International relations: the key consepts. 2nd edition. London, "Rautledge", 2008, 407 p.
16. Heydərova X. ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində ABŞ-Azərbaycan Respublikası münasibətləri. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2017, 171 s.
17. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005, 752 s.
18. Həsənov Ə. Transmilli dünya gücləri və bölgə dövlətlərinin Xəzər hövzəsindəki geoiqtisadi siyasəti, maraqları və fəaliyyətinin xarakteristikası. Geostrategiya, №04 (10), 2012, s.8-12.
19. İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı, "Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı", 2001, 152 s.
20. Qaraşova S. ABŞ-Rusiya: postsovet məkanı uğrunda mübarizə. Bakı, "Səda", 2018, 408 s.
21. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı, "Mütərcim", 2015, 640 s.
22. Qələndərova E. Terror anlayışı və onun müasir növləri. Qanun, № 01 (267), 2017, s.103-110.
23. Quliyeva G. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2010, 182 s.
24. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, "XXI-YNE", 2003, 248 s.
25. Məmmədli B. Heydər Əliyevin birinci prezidentliyi dövründə Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında. Geostrategiya, №6 (78), 2023, s.64-71.
26. Məmmədov N. Xarici siyasətin Azərbaycan modeli. Bakı, "Çaşıoğlu", 2012, 464 s.
27. Mirabdullayev A. Rusiyanın postsovet məkanında geostrategiyası. Bakı, "Elm", 2008, 332 s.

28. Mustafayeva S., Qurbanova Ş., Cavadova Z. ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər). Bakı, 2011, 301 s.
29. Nəsibova Ə. Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti. Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2014, 158 s.
30. Nəsirov E. ABŞ və beynəlxalq terrorizm problemi (2001-2010-cu illər). Bakı, "TEAS Press", 2018, 344 s.
31. Nəsirov E. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı, "Adiloğlu", 2003, 262 s.
32. Nəsirov E. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, "Elm və Təhsil", 2010, 392 s.
33. Nichol J. Armenia, Azerbaijan and Georgia: security issues and implications for U.S. interests. Congressional research service, Washington, 2009, 61 p.
34. Nuriyev E. Post-September 11 regional geopolitics: Azerbaijan and the new security environment in the South Caucasus. Connections: The Quarterly Journal, No.3, 2002, pp.13-20.
35. Paşayev H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi. Dirçəliş-XXI əsr, №66, 2003, s.95-100.
36. Protopopov A.S, Kozmenko V.M, Yelmanova N.S. Beynəlxalq münasibətlər və Rusiyanın xarici siyasəti tarixi (1648-2005). Bakı, "Qanun", 2009, 444 s.
37. Scharf M. The Iraqi High Tribunal: A Viable Experiment in International Justice? // Journal of International Criminal Justice, 5 (2), 2007, pp. 258-263.
38. Sülhə aparan yollar: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri 1-14 aprel 2001-ci il. Bakı, "Nurol", 2001, 115 s.
39. Yıldırım Z. US Foreign Policy towards Azerbaijan: from "Alliance" to "Strategic Partnership". Alternatives Turkish Journal of International Relations, Vol.11, Issue 4, 2012, p.1-15.
40. Yunusov A. Azerbaijan: The burden of history – waiting for change. The Caucasus: Armed and Divided, London, 2003, pp.2-19.
41. Алиев И. Каспийская нефть Азербайджана. Москва, «Известия», 2003, 712 с.
42. Гаджиев К. Размышления о последствиях "пятидневной войны" для геополитики Кавказа. Мировая экономика и международные отношения, № 8, 2009, с.31-43.
43. Гусейнова И. Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру. Баку, «Тахсил», 2005, 504 с.
44. Гусейнова Л. Современная история США (1918-2001). Баку, «Издательство БГУ», 2007, 120 с.
45. Дарабади П. Кавказ и Каспий в мировой истории и геополитике XXI века. Москва, «Весь Мир», 2010, 214 с.
46. Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. Москва, «Аквариус», 2014, 280 с.
47. Муромов А. 100 великих авиакатастроф. Москва, «Вече», 2003, 528 с.
48. Султанов Ч. Нефтегазовые стратегии и политика в XXI веке. Баку, «Нурлар», 2008, 704 с.
49. Фридман В. 11 сентября: вид на убийство. Москва, «НЦ ЭНАС», 2009, 338 с.
50. Capture of Saddam Hussein - https://en.wikipedia.org/wiki/Capture_of_Saddam_Hussein [06.02.2024].
51. September 11 attacks - https://en.wikipedia.org/wiki/September_11_attacks [06.02.2024].
52. Вторжение США и их союзников в Ирак (2003) - https://ru.wikipedia.org/wiki/Вторжение_США_и_их_союзников_в_Ирак_(2003) [06.02.2024].

БАЛАМИРЗА МАМЕДЛИ
Докторант Бакинского Государственного Университета

АЗЕРБАЙДЖАНО-АМЕРИКАНСКИЕ ОТНОШЕНИЯ В ПЕРИОД ВТОРОГО ПРЕЗИДЕНТСТВА ГЕЙДАРА АЛИЕВА В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ

На рубеже XX и XXI веков отношения Азербайджана с единственной в мире сверхдержавой Соединенными Штатами совпали со вторым президентством выдающегося государст-

венного деятеля Гейдара Алиева. Не только в отношениях с США, но и во внешней политике независимой Азербайджанской Республики в целом за этот период произошли заметные позитивные изменения. Если в первые годы независимости Азербайджана отношения между Азербайджаном и США были более непонятными и сложными, то после возвращения к политической власти в Азербайджане мудрого и дальновидного государственного деятеля Гейдара Алиева двусторонние отношения начали существенно развиваться в положительную динамику и отношения между двумя странами поднялись на уровень стратегического партнерства. В частности, серьезное влияние на двусторонние отношения оказало немедленное включение Азербайджана в антитеррористическую кампанию под руководством США после инцидента 11 сентября 2001 года, потрясшего весь мир. Данный период азербайджано-американских отношений (1998-2003 годы) широко отражен в трудах многочисленных исследователей азербайджанской историографии. В статье на основе сравнительного анализа и обобщения исследовательских работ по указанной проблеме в отечественной историографии изучаются пятилетние азербайджано-американские отношения.

Ключевые слова: Азербайджанская Республика, США, Гейдар Алиев, Джордж Буш-младший, внешняя политика, международные отношения, антитеррористическая кампания, отечественная историография.

BALAMIRZA MAMMADLI
PhD student at Baku State University

AZERBAIJAN-US RELATIONS DURING THE SECOND PRESIDENCY OF HEYDAR ALIYEV IN DOMESTIC HISTORIOGRAPHY

At the turn of the 20th century and the 21st century, Azerbaijan's relations with the world's only superpower the United States, coincided with the second presidency of the outstanding statesman Heydar Aliyev. Not only in the relations with the US, but also in the foreign policy of the independent Republic of Azerbaijan as a whole, noticeable positive changes took place in this period. If in the first years of Azerbaijan's independence, Azerbaijan-US relations were more incomprehensible and complicated, after the return of the wise and far-sighted statesman Heydar Aliyev to political power in Azerbaijan, mutual relations began to develop significantly on a positive trend and the relations between the two countries has risen to the level of strategic partnership. In particular, Azerbaijan's immediate inclusion in the US-led anti-terrorist campaign following the September 11, 2001 incident that shocked the entire world, had a major impact on bilateral relations. The given period of Azerbaijan-US relations (1998-2003) is widely reflected in the works of numerous researchers of Azerbaijani historiography. In the article, five years of Azerbaijan-US relations are studied based on the comparative analysis and generalizations of the research works on the mentioned problem in domestic historiography.

Keywords: Republic of Azerbaijan, USA, Heydar Aliyev, George W. Bush, foreign policy, international relations, anti-terrorist campaign, domestic historiography.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 fevral 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: s.e.d. Elman Nəsirov, t.e.d. Anar İsgəndərov.